Polşa prezidenti Rusiyadan üzr istədi

Yazan
13.11.13 21:55 -



Polşa prezidenti Bronislav Komorovski noyabrın 11-də “Müstəqillik marşı” zamanı Rusiya səfirliyinin binası ətrafında törədilən əməllərə görə üzr istəyib.

B. Komorovski ZET radiosunda müvafiq bəyanatla çıxış edib. O, diplomatik missiyanın yaxınlığında baş verənləri skandal adlandıraraq buna heç cür bəraət qazandırmaq mümkün olmadığını vurğulayıb.

B. Komorovski qeyd edib ki, bu qalmaqalla bağlı Polşa adından Rusiya tərəfinə rəsmi üzrxahlıq göndərmək lazımdır. Onun fikrincə, Polşanı rusofob dövlət kimi təqdim etmək istəyən çoxsaylı qüvvələr var.

Qeyd edək ki, Rusiya olaylarla bağlı Polşadan üzrxahlıq tələb etmişdi.